**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**РАМИЛЬ НАЗИМ ОГЛУ МИРЗОЕВ**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СУБЪЕКТИВНЫХ ПРЕДСТАВЛЕНИЙ ПОДРОСТКОВ О КОНФЛИКТЕ

6104.01 – Педагогическая психология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по психологии

**Баку – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**RAMİL NAZİM OĞLU MİRZƏYEV**

# YENİYETMƏLƏRİN KONFLİKT HAQQINDA SUBYEKTİV TƏSƏVVÜRLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

6104.01 – Pedaqoji psixologiya

**Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı - 2016**

İş Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya üzrə elmlər doktoru,
professor **Əbdül Əli oğlu Əlizadə**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru
**Hökümə İmran qızı Əliyeva**

Aparıcı təşkilat: **Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun "Psixologiya və yaş fiziologiyası" şöbəsi**

Müdafiə "_27__" "___02______" 2016 - cı ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD. 02. 014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi 23, II korpus, auditoriya 901

Dissertasiya ilə BDU - nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "__________" 2016 - cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 20; tiraj 100
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə əvvəlki illərlə müqayisədə bir sıra amillərin təsirilə cəmiyyətdə, insanlar arasında fiziki və mənəvi zorakılıqla müşayiət olunan cinayət hadisələrinin, lokal müharibələrin, sosial-iqtisadi çətinliklərin, intihar hallarının və s. davamlı artması, paralel olaraq informasiya axınının çoxalması insanlar arasındakı qarşılıqlı münasibətləri daha da mürəkkəbləşdirir. Bununla da insan münasibətlərindəki uyğunsuzluqlar yeni məzmun kəsb edir və davranışların spesifik xüsusiyyətlərilə şərtlənən müxtəlif tipli konfliktlər meydana çıxır.

Faktlar göstərir ki, əksər hallarda fərdin situasiyanı subyektiv olaraq konflikt kimi qavraması onun baş verməsi ehtimallarını qaçılmaz edir. Yəni tərəflərin situasiyanı subyektiv olaraq konflikt kimi qəbul etmələri adekvat reaksiya ilə tamamlanır. Bu prosesdə uyğun davranış modellərinin seçilməsi tərəflərin konflikt haqqında subyektiv təsəvvürlərinin inkişaf xüsusiyyətləri ilə birbaşa əlaqəli olur.

Nəzərə almaq lazımdır ki, cəmiyyətdə gedən neqativ hallar fonunda münasibətlərdəki destruktiv təsirlərə daha çox məruz qalan yeniyetmələrdir. Bu zaman onların şəxsiyyətində özünəməxsus məziyyətlər ortaya çıxır və bu da konfliktə həssaslığı artırır.

Məlumdur ki, yeniyetmənin spesifik xüsusiyyətləri, o cümlədən bu yaş dövrünün böhran xarakteri onlarda şəxsiyyətdaxili və şəxsiyyətlərarası konfliktlərin yaranması üçün əlverişli zəmin yaradır. Aparılmış tədqiqatlar göstərir ki, məhz yeniyetmə yaşı dövründə ortaya çıxan konfliktlər daha çox qeyri-konstruktiv xarakter daşıyır və əksər hallarda asosial davranışlara gətirib çıxarır.

Başqa bir tərəfdən yeniyetmələrin yaş xüsusiyyətlərindən asılı olaraq aktuallaşan tələbatları münasibətlərdə tez-tez qarşıdurmalara səbəb olur. Onların valideynlərlə, müəllimlərlə, müxtəlif yaşdan olan şagirdlərlə qarşılıqlı münasibətlərindəki fikir ayrılıqları və mövqe statusları konfliktləri qaçılmaz edir. Ən mühüm cəhət ondan ibarətdir ki, yeniyetmələrdə koqnitiv inkişaf yüksək səviyyədə olmadığından davranış və münasibətlər haqqında təsəvvürləri də fərdi səciyyə daşıyır. Bu səbəbdən də yeniyetmələr konfliktləri müstəqil həll edə, ortaya çıxan problemləri özünəməxsus formada tənzimləyə bilmirlər. Belə vəziyyət təlim-tərbiyə prosesini pozur, yeniyetmənin layiqli vətəndaş kimi formalaşmasına maneə olur və əsasən də destruktiv davranış modelləri formalaşdırır. Bu baxımdan yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi aktualdır və təlim-tərbiyə prosesinin düzgün təşkilinə, eləcə də

konfliktlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsinə zəmin yaradır. Məhz bu cəhətləri nəzərə alıb “Yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətləri” mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Aparılmış araşdırmaların təhlilindən aydın olur ki, problemlə bağlı mövcud tədqiqatlar içərisində dörd istiqamət diqqəti daha çox cəlb edir.

Birinci istiqamət sosial-fəlsəfi yanaşmadır. Burada əsasən, konfliktin yaranma səbəbləri ilə bağlı ümumi fəlsəfi yanaşmalar əsas yer tutur. Eləcə də konfliktin, tarixi-mədəni aspektlərinə və sosioloji tərəflərinə diqqət yetirilir (Heraklit, Aristotel, Kleobul, Xilon, Pittak, Periandr, F. Bekon, R. Dekart, C. Lokk, İ. Kant, Hegel, K. Marks, T. Hobbs, V. Solovyov, Klauzevs, R. Darendorf, N. Gəncəvi, N. Tusi, M. Əhvədi, Z. Göyüşov, Ü. Şəfiyev və b.).

İkinci istiqamət psixoanalitik yanaşmadır. Bu yanaşma tərəfdarları konfliktlərə daha çox şəxsiyyətdaxili xüsusiyyət kimi baxırlar. Onlar istənilən konflikti şəxsiyyətdaxili ziddiyyətlərin təzahür forması kimi araşdırırlar (Z. Freyd, K. Xorni, A. Adler, E. Fromm, L. Festinqer, E. Erikson, A. Freyd, E. Bern və b.).

Üçüncü istiqamət sosial-psixoloji yanaşmadır. Bu yanaşma konfliktlərin səbəbini qrupda insanlar arasındakı rəqabətdə, müəyyən situasiyada maraqların toqquşmasında, münasibətlərin xarakterində, qrup üzvlərinin emosional vəziyyətində, onların bir-birinə olan simpatiya və antipatiyasında axtarır (K.Levin, N.Miller, C.Moreno, M.Doyç, C.Skott, K.Tomas, K.Abulxanova-Slavskaya, Q.M.Andreyeva, L.S.Vıqotski, N.Qrişina, A.Asmolov, V.Drujinin, B.Əliyev, Ə.Əlizadə, S.Seyidov, Ə.Əlizadə, R. Məmmədzadə və b.).

Dördüncü istiqamət yaş və pedaqoji psixologiyada konfliktlərlə bağlı keçirilən tədqiqatlardır. Bu sahədə aparılan araşdırmalar yeniyetməlik yaşı dövründə qarşılıqlı münasibətlərin özünüdərketmə prosesinin xüsusiyyətlərindən asılı olduğunu təsdiq edir və yeniyetmələrdə destruktiv davranışları şərtləndirən psixoloji səbəbləri göstərirlər (S. Xol, M. Kle, M. Mid, Conson, A.Bandura, A.Leontyev, N.Qrişina, D.Elkonin, V.Lozovsyev, B.Lixaçev, İ.Kon, L.Vinokurov, V.Krutetski, L.Semenyuk, D.İ.Feldşteyn, B.Əliyev, Ə.Əlizadə, H.Əlizadə, R.Cabbarov, Q.Əzimov, R. Əliyev, M. Həmzəyev, R. Məmmədzadə, H.Əliyeva, S.Əliyeva və b.). Lakin nəzəri və eksperimental faktlarla zəngin olan bu tədqiqatlarda yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin sistemli şəkildə tədqiq edildiyini söyləmək olmaz. Bu da problemin

aktuallığını bir daha artırır.

**Tədqiqatın obyekti** yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin təzahür xüsusiyyətləridir.

**Tədqiqatın predmeti** yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin inkişaf mexanizmi, konfliktlərin yaranmasına təsir edən amillərin xarakteri və onun istiqamətlərinin psixoloji təhlilidir.

**Tədqiqatın məqsədi** xüsusi metodikaların, psixoloji eksperimentlərin köməyi ilə yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin psixoloji xüsusiyyətlərini araşdırmaq, konfliktli situasiyalarda yeniyetmələrin destruktiv davranış modellərinin mexanizmlərini müəyyən etmək, onların aradan qaldırılmasının yol və vasitələrini göstərməkdir.

**Tədqiqatın əsas fərziyyəsi.** Təlim prosesində yeniyetmələrin aqressiv reaksiyaları ilə onların konflikt haqqında subyektiv təsəvvürlərinin məzmun və strukturu arasında qarşılıqlı əlaqə mövcuddur. Konflikt haqqında subyektiv təsəvvürlərin fərdiliyi aqressiv reaksiyaların mütəmadiliyi ilə şərtlənir.

Əsas fərziyyəyə uyğun olaraq bir fərziyyə də götürülmüşdür:

- Şəxsiyyətlərarası konfliktlərin mahiyyəti, strukturu və emosional cəhətləri haqqında yeniyetmə oğlan və qızların təsəvvürlərinin dəyişməsi dinamikasındakı fərqlər onların məlumatlılıq səviyyəsindən asılıdır.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdir:

1. Müvafiq fəlsəfi, psixoloji və pedaqoji ədəbiyyatın təhlili əsasında problemə yanaşmanın nəzəri aspektlərinin müəyyən edilməsi, onların müəyyən kriteriyalar əsasında sistemləşdirilməsi.
2. Yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərində struktur elementlərin öyrənilməsi üçün istifadə olunacaq metodikaların hazırlanması.
3. Yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin aşkarlanması.
4. Yeniyetmələrin aqressivliyi ilə konflikt haqqında subyektiv təsəvvürlərin qarşılıqlı əlaqə mexanizminin müəyyənləşdirilməsi.
5. Yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin inkişaf xüsusiyyətlərini, eləcə də onun ayrı - ayrı elementlərinin dəyişmə mexanizminin təhlil edilməsi.
6. Şəxsiyyətlərarası konfliktlərin mahiyyəti, strukturu və emosional təzahürü haqqında oğlan və qızların təsəvvürlərinin öyrənilməsi.

**Tədqiqatın metodoloji əsasları və metodları.** Yeniyetmələrin konflikt

haqqında subyektiv təsəvvürlərini öyrənərkən bu prosesin ümumpsixoloji və fəlsəfi prinsipləri əsas götürülmüşdür. Bununla yanaşı yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi zamanı Albert Banduranın «sosial öyrənmə» nəzəriyyəsinin müddəalarına da istinad olunmuşdur.

Yeniyetmələrdə konflikt haqqında təsəvvürlərin formalaşma mexanizmlərini öyrənmək üçün müxtəlif psixoloji metodlardan istifadə olunmuşdur:

– V. A. Labunskayanın "Sərbəst semantik təsvir" metodikası;

– A. Bass və A. Darkın "Yeniyetmələrdə aqressiv reaksiyaların təzahür xüsusiyyətlərinin öyrənilməsi" metodikası;

– E. P. İlin və P. A. Kovalyovun "Şəxsiyyətin aqressivliyi və konfliktliyi" metodikası.

Əldə olunmuş materialların kəmiyyət və keyfiyyət təhlilindən də istifadə olunmuşdur. Tədqiqatda istifadə edilmiş metodikaların modifikasiya edilmiş və sınaqdan çıxmış variantlarına istinad edilmişdir. Tədqiqat Bakı şəhərinin 111, 115, 152 saylı məktəblərinin və Elitar gimnaziyanın VI - IX sinif şagirdlərinin iştirakı ilə keçirilmişdir. Tədqiqatda 400 nəfər şagird iştirak etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada mövcud tədqiqatlardan fərqli olaraq yeniyetmələrin aqressiv reaksiyaları ilə konflikt haqqında subyektiv təsəvvürlərinin məzmun və strukturunda qarşılıqlı əlaqənin qanunauyğunluqları üzə çıxarılmış, konfliktlər yeniyetmələrin subyektiv təsəvvürləri istiqamətində araşdırılmış, bu sahədə aparılmış tədqiqatlar sistemləşdirilmiş, oğlan yeniyetmələrə nisbətən qız yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin daha mürəkkəb xarakterə malik olduğu müəyyən edilmişdir.

Bununla yanaşı bu işdə:

– Yeniyetmələrdə konflikt haqqında subyektiv təsəvvürlərin formalaşmasının etnik stereotiplərdən asılılığı aşkar edilmiş;

– Yeniyetmələrdə konflikt haqqında təsəvvürlərinin yaşa və cinsə görə dəyişmə dinamikası müqayisəli şəkildə araşdırılmış;

– Yeniyetmələrin konflikt haqqındakı subyektiv təsəvvürlərinin onların qarşılıqlı münasibətlər haqqındakı məlumatlılıq səviyyəsindən asılı olması üzə çıxarılmış;

– Yeniyetmələrə konfliktin optimal həlli yollarının öyrədilməsilə onlarda konfliktin həlli üçün konstruktiv təsəvvürlərin yaradılmasının mümkünlüyü müəyyənləşdirilmiş;

– Konflikt haqqındakı təsəvvürlərin yeniyetmələrin yaş xüsusiyyətlərindən asılılığı faktı üzə çıxarılmış, yeniyetmələrdə konflikt haqqında neqativ

təsəvvürlərin adekvat istiqamətdə dəyişdirilməsinin yol və vasitələri göstərilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

– Yeniyetmələrin konflikt haqqındakı fikirlərindən və bu situasiyalara olan emosional reaksiyalarının xarakterindən asılı olaraq, konflikt haqqındakı subyektiv təsəvvürlər yaşa və cinsə görə dəyişir.

–Ailədaxili münasibətlərin tipindən, sosial-iqtisadi vəziyyətindən, konfliktli və ya demokratik olmasından asılı olaraq, yeniyetmələrdə konflikt haqqında təsəvvürlər konstruktiv və destruktiv yönümdə inkişaf edir.

– Konfliktin həlli modellərinin yeniyetmələrə öyrədilməsi yaranmış ziddiyyətli münasibətlərin konstruktiv sonluqla tamamlanmasına müsbət təsir edir.

– Yeniyetmələrdə ortaya çıxan yaşlılıq hissinin nəzərə alınması destruktiv tipli konfliktlərin azalmasına zəmin yaradır. Yeniyetmələrin yaşı artdıqca onlar konflikt şəraitlərində davranışlarını öz daxili subyektiv təsəvvülrərinə görə qurur, situasiyanı müəyyən "etalonlar" əsasında qiymətləndirirlər.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi yaş və pedaqoji psixologiyanı, sosial psixologiyanı, ümumi psixologiyanı nəzəri müddəalarla zənginləşdirir, konflikt probleminə yanaşmada konstruktiv yolların formalaşdırılmasına zəmin yaradır. Dissertasiyada çıxarılan nəticələr, irəli sürülən təkliflər müəllim, valideyn və tərbiyəçiləri nəzəri biliklərlə silahlandırmaqla yanaşı, yeniyetmə qruplarında konfliktlərin səmərəli həllində onlara köməklik göstərə bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Əldə olunmuş nəticələrdən yeniyetmə yaşı dövründə konfliktlər haqqında subyektiv təsəvvürlərin müəyyən edilməsi işində, eləcə də müxtəlif fənlərin, o cümlədən yaş və pedaqoji psixologiyanın, ümumi psixologiyanın tədrisində, məktəb praktikasında yeniyetmələrin psixoloji vəziyyətinin yaxşılaşdırılmasında, konfliktlərin konstruktiv həllində məktəb psixoloqlarının, valideynlərin, müəllim və tərbiyəçilərin fəaliyyətində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi ADPU-nun Ümumi psixologiya kafedrasının elmi seminarlarında müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları, nəticə və tövsiyyələri respublika elmi - praktik konfranslarında məruzə olunmuş, həm yerli, həm də xarici elmi jurnallarda çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, iki fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

İşin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə səviyyəsi haqqında məlumat verilir, tədqiqatın məqsəd və vəzifələri bildirilir, onun elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanır və dissertasiyanın strukturu göstərilir.

Dissertasiyanın **"Müasir psixologiyada konflikt problemi"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. I fəslin **"Konflikt psixologiyasının nəzəri - tarixi məsələləri"** adlanan birinci yarımfəslində konflikt haqqında tarixi araşdırmalar, həm yerli, həm də xarici ölkə filosof və psixoloqlarının konfliktin mahiyyəti haqqındakı fikirləri, problemə nəzəri baxışları, konflikt və konflikt situasiyalar üzrə apardıqları tədqiqatlar, konfliktlərin təsnifatı, konfliktin funksiyaları, strukturu və konfliktlərin həlli yolları haqqında araşdırmalar geniş şərh olunmuşdur.

Aparılmış tədqiqatların təhlili göstərir ki, konflikt probleminə münasibət heç də bir mənalı deyil. Bəzi alimlər hesab edir ki, konfliktlər təbii qarşısıalınmaz prosesdir, bəziləri düşünür ki, bu şəxsiyyətdaxili amillərlə əlaqəlidir. Bəziləri isə hesab edir ki, konflikt gözlənilən və gözlənilməz situasiyaların təsiri, həmçinin insanların motivasiya sferasının xüsusiyyətləri ilə şərtlənən prosesdir.

Tomas Hobbs «Leviafan» əsərində göstərir ki, təbiət bütün insanları fiziki və əqli keyfiyyətləri baxımmdan bərabər yaradıb, onun fikrincə məhz bu bərabərlik də insanlar arasında müxtəlif tipli və xarakterli konfliktlərin yaranmasına səbəb olur. Bu halda konfliktlər o zaman baş verir ki, insanlar əldə etmək istədiklərini qazanmaq üçün müxtəlif üsul və davranış modellərindən istifadə edirlər.

Z. Freyd göstərirdi ki, konfliktlərin əsas səbəbi insanın instinktiv meylləri və onlara qarşı sosial sahədə qoyulmuş qadağalarla bağlıdır. Koqnitiv dissonas nəzəriyyəsinin müəllifi L. Festinqerə görə «konflikt situasiya»dan «konflikt»ə keçid o zaman yaranır ki, fərdin təsəvvüründə bir - birinə əks olan iki məlumat eyni vaxtda onu hərəkətə gətirir. K. Lorens sosial konfliktlərin əsas səbəbi kimi fərdin və kütlənin aqressivliyini irəli sürmüşdür. O, aqressiyanı canlı orqanizmin daimi vəziyyəti hesab edirdi.

M.Doyç münasibətlərdə yaranan konfliktlərə situasiya baxımından yanaşmaqla onların səbəbini şəxsiyyətlərarası qarşılıqlı təsirdə və sosial əlaqələrin tiplərində axtarırdı. «Sahə nəzəriyyəsi»nin müəllifi K. Levin konflikti situasiyada iki əks istiqamətin eyni vaxtda, təxminən bərabər həcmli qüvvələrlə fərdə təsirləri hesab edirdi. K. Levin psixoanalitiklərdən fərqli olaraq belə düşünürdü ki, konflikt psixikanın daxili prosesi olmayıb,

həyati situasiyalarda fərdin problemləri təhlil etməsi zamanı yaranır. Bu zaman motivlər mübarizəsi konflikti şərtləndirən əsas amilə çevrilir.

Transaktsiya nəzəriyyəsinin müəllifi E.Bern şəxsiyyətlərarası konfliktləri insanların "eqo" mövqeyi ilə izah edirdi. O, hesab edirdi ki, insanların qarşılıqlı təsiri psixoloji baxımdan «Valideyn - Uşaq», «Uşaq - Valideyn» transaktsiyalarına söykəndiyi an konfliktlər qaçılmaz olur.

Azərbaycan müəlliflərinin konfliktlərlə bağlı geniş tədqiqatları vardır. Bu tədqiqatlarda sosial, pedaqoji və ailə konfliktlərinə geniş yer verilmişdir (B.Əliyev, Ə. Əlizadə, H.Əlizadə, S.Seyidov, R.Məmmədzadəni, Ü.Şəfiyevi, Q.Əzimov, R.Əliyev, M.Həmzəyev, H.Əliyeva və b.). Bu sahədə mövcud konfliktləri tədqiq edən R.H.Məmmədzadə özünün "Konfliktlər, ailələr, məktəblilər" adlı əsərində geniş təhlillər vermiş və maraqlı faktlar üzə çıxarmışdır. Ə. Əlizadə və R.Məmmədzadə araşdırmalarında ailə münasibətlərində və yeniyetmə qruplarında yaranan konfliktlərin daha çox rast gəlinən səbəblərini sistemləşdirmişlər.

I fəslin **"Yeniyetməlik yaşı dövründə konflikt haqqında təsəvvürləri öyrənmənin spesifik xüsusiyyətləri"** adlanan ikinci yarımfəslində yeniyetməlik yaşının özünəməxsus xüsusiyyətləri şərh olunur. Bunun üçün ölkə və dünya psixoloqlarının bu yaş dövrünün xüsüsiyyətlərini əks etdirən tədqiqatları sistemli tədqiq edilmiş, uşaqlıqdan yaşlılığa keçid dövrünü şərtləndirən amillər şərh olunmuş, inkişafa görə dəyişmənin «mənlik» və əxlaqi şüurla qarşılıqlı əlaqəsi göstərilmişdir. Həmçinin bu yarımfəsildə yeniyetməlik yaşına xas olan konfliktlərin baş vermə səbəbləri qeyd olunmuş, həlli yolları göstərilmiş, eyni zamanda yeniyetməlik yaşında tez - tez baş verən aqressiv reaksiyaları yaradan amillər açıqlanmış və destruktiv konfliktlərin yaranmasındakı rolu şərh olunmuşdur. Bu yarımfəsildə diqqət yetirilən əsas sahələr ailə - yeniyetmə münasibətləri, eyni zamanda pedaqoji prosesdə baş verən yeniyetmə konfliktləri, həmçinin KİV- in yeniyetmə psixologiyasına mənfi təsirlərinin şərh olunması təşkil edir.

Kanada psixoloqu A. Bandura hesab edir ki, aqressiya və destruktiv hərəkətlər ailə üzvləri tərəfindən himayə edilən ən mühüm davranış modellidir. O, qeyd edir ki, uşaq və yeniyetmələr daha çox o aqressiya modellərindən istifadə edirlər ki, valideynləri həmin davranış modelini başqalarına qarşı istifadə etmişlər. Müəllif qeyd edir ki, yeniyetmələr destruktiv hərəkətlərə o halda başlayırlar ki, onların davranış modeli böyüklərin, xüsusilə ailə üzvlərinin zorakı hərəkətləri əsasında formalaşır. Elmi ədəbiyyatların təhlili göstərdi ki, yeniyetməlik yaşında yüksək aqressivlik və konflikt bu yaş dövrünə keçidi şərtləndirən özünəməxsus xüsusiyyətdir.

I fəslin **"Tədqiqatın metodikası"** adlanan üçüncü yarımfəslində prob-

lemin araşdırılmasının nəzəri müddəaları, yol və vasitələri, əsas prinsipləri şərh edilir. Həmçinin bu yarımfəsildə problemi öyrənmək üçün istifadə olunan metodların mahiyyəti açıqlanmış, "sosial öyrənmə" nəzəriyyəsinin müddəaları şərh olunmuş, keçirilən psixoloji eksperiment mətnləri ilə yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin öyrənilməsi mümkünlüyü göstərilmişdir.

Dissertasiyanın **"Yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin məzmunu və onların dəyişmə xüsusiyyətləri"** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Şəxsiyyətlərarası konfliktlərin strukturu və mahiyyəti haqqında yeniyetmə təsəvvürlərinin yaş determinantları"** adlanan birinci yarımfəsildə yaş qruplarına görə yeniyetmələrin konflikt haqqında təsəvvürlərinin məzmununda olan fərqli xüsusiyyətlər araşdırılmışdır.

V.A.Labunskayanın "Sərbəst semantik təsvir" metodikası əsasında yeniyetmələrin birinci iki suala (Konflikt nədir? və Konflikt necə yaranır?) verdikləri cavab variantlarının ilkin təhlili yeniyetmələri müxtəlif mövqeylər üzrə qruplaşdırmağa imkan verdi. Tədqiqat bir neçə mərhələdə keçirildi. Birinci mərhələdə respondentlərə bir neçə sınaq xarakterli qapalı suallar təqdim olundu. Suallar tədqiqatın birinci hissəsində konflikt anlayışına münasibətdə respondentlərin daha çox istifadə etdikləri beş söz əsasında qurulmuşdur. Bunlar «dalaşmaq», «mübahisə», «vuruşmaq», «fikir ayrılığı», «anlaşılmazlıq» anlayışlarıdır. Burada «dalaşmaq», «mübahisə» və «vuruşmaq» anlayışları daha çox «konflikt»ə sinonim söz kimi, «fikir ayrılığı», «anlaşılmazlıq» anlayışları isə daha çox konfliktə keçid kimi, yəni «konflikt situasiya» kimi açıqlanmışdır.




*Şək. 2.1. Yeniyetmələrdə konflikt haqqında ekvivalent anlayışların yaşa görə dəyişməsi*

Yeniyetmələrin subyektiv təsəvvürlərində konfliktin ekvivalent anlayışlarının dəyişmə göstəriciləri (n = 180)

| İştirak-çıların sayı | "Konflikt" in ekvivalent anlayışları | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | dalaşmaq | | mübahisə | | vuruşmaq | | fikir ayrılığı | | anlaşılmazlıq | |
| | cavab ların sayı | iştirak-çıların % - i | cavab ların sayı | iştirak-çıların % - i | Cavab-ların sayı | iştirak-çıların % - i | cavab ların sayı | iştirak-çıların % - i | cavab ların sayı | iştirak-çıların % - i |
| 12 yaş | | | | | | | | | | |
| oğlan,n=22 | 18 | 81,82 | 16 | 72,73 | 14 | 63,64 | 17 | 77,28 | 9 | 40,91 |
| qız, n=23 | 23 | 100,00 | 19 | 82,61 | 17 | 73,92 | 19 | 82,61 | 10 | 43,48 |
| cəmi, n=45 | 41 | 91,12 | 35 | 77,78 | 31 | 68,89 | 36 | 80,00 | 19 | 42,23 |
| 13 yaş | | | | | | | | | | |
| oğlan,n=25 | 22 | 88,00 | 21 | 84,00 | 22 | 88,00 | 16 | 64,00 | 12 | 48,00 |
| qız, n= 20 | 19 | 95,00 | 18 | 90,00 | 20 | 0,00% | 15 | 75,00 | 14 | 70,00 |
| cəmi, n=45 | 41 | 91,12 | 39 | 86,67 | 42 | 93,34 | 31 | 68,89 | 26 | 57,78 |
| 14 yaş | | | | | | | | | | |
| oğlan, n= | 20 | 83,40 | 19 | 79,17 | 21 | 87,50 | 14 | 58,34 | 8 | 33,33 |
| qız, n= 21 | 21 | 100,00 | 20 | 95,24 | 20 | 95,24 | 13 | 61,90 | 11 | 52,38 |
| cəmi, n=45 | 41 | 91,12 | 39 | 86,67 | 41 | 91,12 | 27 | 60,00 | 19 | 42,23 |
| 15 yaş | | | | | | | | | | |
| oğlan,n=21 | 18 | 85,72 | 18 | 85,71 | 21 | 100,00 | 14 | 66,67 | 6 | 28,58 |
| qız, n= 24 | 24 | 100,00 | 22 | 91,67 | 22 | 79,17 | 12 | 50,00 | 9 | 37,15 |
| cəmi, n= 45 | 42 | 93,40 | 40 | 88,89 | 43 | 95,56 | 26 | 57,78 | 15 | 33,34 |
| cəmi | | | | | | | | | | |
| oğlan,n= 92 | 78 | 84,78 | 74 | 80,43 | 78 | 84,79 | 61 | 66,31 | 35 | 38,04 |
| qız, n= 88 | 87 | 98,87 | 79 | 89,78 | 79 | 89,78 | 59 | 67,05 | 44 | 50,00 |
| cəmi,n=180 | 165 | 91,67 | 153 | 85,00 | 157 | 87,23 | 120 | 66,67 | 79 | 43,89 |

Tədqiqatlardan məlum oldu ki, yeniyetmələrin yaşı artdıqca onlar "konflikt" anlayışını "konflikt situasiya" anlayışından daha asan ayıra bilirlər. Belə ki, altıncı (12 yaş) sinifdə oxuyanların təsəvvürləri səkkiz (14 yaş) və doqquzuncu (15 yaş) sinifdə oxuyanların təsəvvürlərindən xeyli dərəcədə fərqlənir. Nəticələrdən məlum olur ki, 68,89% altıncı sinifdə oxuyan yeniyetmə (63,64% oğlan, 73,92% qız) vuruşmağı konflikt hesab edir. Onlar üçün daha çox dalaşmaq və fikir ayrılığı əhəmiyyət daşıyır. Dalaşmağı altıncı sinifdə oxuyanların 89,08%-i konflikt kimi göstərib,

onlardan 81,82% oğlan, 100% isə qız olmuşdur. Fikir ayrılığını konflikt kimi altıncı sinifdə oxuyanların 80% qeyd edib, onlardan 77,28% oğlan, 82,61% isə qızdır. Yeddinci, səkkizinci və doqquzuncu siniflər altıncı siniflərdən fərqlənirlər. Onlar üçün «konflikt» kimi dalaşmaq və vuruşmaq demək olar ki, eyni dərəcədə əhəmiyyətlidir. Yeddinci (13 yaş) sinifdə oxuyanlar arasında iştirakçıların 93,34% vuruşmanı, 91,12% isə dalaşmanı konflikt hesab edir. Səkkizinci (14 yaş) sinifdə oxuyanlar arasında iştirakçıların 91,12% vuruşmanı və dalaşmanı konflikt hesab edir. Doqquzuncu (15 yaş) sinifdə oxuyanlardan isə iştirakçıların 93,40% dalaşmanı, 95,56% vuruşmanı "konflikt" hesab edir. Burada oğlan və qızların təsəvvürlərində o qədər də fərq üzə çıxmamışdır.

Cədvəldən də görünür ki, yeddinci, səkkizinci və doqquzuncu siniflər 86,67% (13 yaş), 87,67% (14 yaş) və 88,89% (15 yaş) hallarda mübahisəni konflikt hesab edir, altıncı sinif şagirdləri (12 yaş) isə 77,78%-i mübahisəni konflikt sayırdılar.

Tədqiqatın bu mərhələsində həmçinin yeniyetmələrin konflikt zamanı yaşantılarının nəticəsi kimi üzə çıxan qisas üsulları haqqında təsəvvürlərinin yaşa və cinsə görə dəyişməsi də öyrənilmişdir. Nəticələrdən məlum oldu ki, yeniyetmələrin yaşı artdıqca qisas üsulları haqqında təsəvvürlərdə dağıdıcı elementləri özündə əks etdirən fikirlərə daha çox rast gəlinir. Diqqət çəkən məqamlardan biri də o olmuşdur ki, qızlara nisbətən oğlanların təsəvvürlərində qisas üsulları təhlükəlilik səviyyəsinə görə yuxarı olmuşdur. Bütün bu nəticələrdəki müxtəliflik bizə imkan verir ki, yeniyetmələrin konfliktli davranış haqqında təsəvvürlərinin emosional məzmununa fərqli yanaşaq.

II fəslin **"Yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərilə aqressiv vəziyyətlərinin qarşılıqlı əlaqəsinin təhlili"** adlanan ikinci yarımfəslində yeniyetmə aqressivliyinin bəzi cəhətləri araşdırılmış və onun destruktiv təsəvvürlərin formalaşmasına təsiri açıqlanmışdır. Tədqiqat göstərir ki, yüksək aqressivli yeniyetmələr konfliktlərin həllini daha çox destruktiv istiqamətdə həll etməyə meylli olurlar.

Bu yarımfəsildə həmçinin yeniyetmələrdə aqressiv reaksiyaların təzahür xüsusiyyətləri araşdırılmış, həmin reaksiyaların konflikt haqqında təsəvvürlərdəki ölçü əmsalı üzə çıxarılmış, bu reaksiyaların yaşa və cinsə görə dəyişməsi təhlil olunmuş, həmçinin destruktiv konfliktlərin yaranmasında aqressivliyin müxtəlif tərəfləri, o cümlədən düşmənçiliyin xüsusiyyətləri şərh edilmişdir. Tədqiqatdan aydın oldu ki, konflikt haqqında destruktiv təsəvvürlərin formalaşmasında aqressiv reaksiyaların danılmaz təsir dairəsi var. Bu baxımdan konfliktin həllində destruktiv təsəvvürlərin formalaşma-

sına daha çox təsir göstərən qəzəb və düşmənçilik hisslərinin yaşa və cinsə görə dəyişməsi mümkündür.

Eksperimentdən aydın oldu ki, oğlanlarda motivasiya xarakterli aqressiya üstünlük təşkil etdiyi halda, qızlarda əksinə, instrumental aqressiya daha qabarıq görsənir.

Tədqiqatın ikinci mərhələsində E.P.İlin və P.A.Kovalyovun "Şəxsiyyətin aqressivliyi və konfliktliyi" metodikasından istifadə etməklə yeniyetməlik yaşında daha qabarıq görsənən aqressiya istiqamətləri araşdırılmışdır. Nəticələrdən məlum oldu ki, yeniyetmələrdə "başqalarının fikirlərinə qarşı dözümsüz"lük variantı üstünlük təşkil edir. Bu isə əsasən müxtəlif şəraitlərdə yaşlılar tərəfindən tutulan iradlara münasibətdə üzə çıxır. Onların bu cavab variantlarına üstünlük verməsinin əsas səbəblərindən biri isə onlarda yaşlılıq hissinin formalaşmasıdır. Sorğuda ikinci yerdə isə mənfi iradi keyfiyyət sayılan "hövsələsizlik" halı dayanırdı. Maraqlı cəhət o idi ki, "hövsələsizlik" halı yaşa və cinsə görə dəyişirdi. Hesablamalar əsasında neqativ və pozitiv aqressivliyin yaşa görə dəyişmə dərəcələri üzə çıxarıldı.




| | 12 yaş | 13 yaş | 14 yaş | 15 yaş |
|---|---|---|---|---|
| Neqativ aqressivlik | 14,05% | 15,14% | 16,70% | 18,80% |
| Pozitiv aqressivlik | 17,00% | 16,50% | 15,50% | 14,80% |

*Şək. 2.2. Yeniyetmələrdə aqressivliyin dəyişmə istiqamətləri*

Şək. 2.2.-dən görünür ki, neqativ və pozitiv aqressivliyin arasında diqqət çəkəcək fərqlər var. Əsas fərqlər ondadır ki, aqressivliyin bu istiqamətləri yaşa görə dəyişir. Belə ki, əgər kiçik yaşlarında yeniyetmələrdə pozitiv aqressivlik üstünlük təşkil edirdisə, onların yaşı artdıqca bu istqamət neqativ aqressivliyə keçir. Bu hal isə subyektiv olaraq konfliktin həlli modeli haqqında yeniyetmədə mənfi təəssürat yaradır.

II fəslin **“Yeniyetmələrdə konfliktlərin mahiyyəti haqqında təsəvvürlərin cinsi fərqlər üzrə eksperimental öyrənilməsi”** adlanan üçüncü yarımfəslində şəxsiyyətlərarası konfliktlərin mahiyyəti, strukturu və emosional yaşantıları haqqında oğlan və qız yeniyetmələrin təsəvvürləri tədqiq olunmuşdur. Bunun üçün müxtəlif eksperimental mətnlərdən istifadə edilmişdir. Cavabların təhlili göstərir ki, məlumatlılığı yuxarı olan yeniyetmələrin fikirlərində konstruktiv elementlər daha çoxdur. Ən maraqlısı isə odur ki, bu cavablarda oğlanlara nisbətən qızların təsəvvürləri xeyli konstruktivdir.

Eksperimental mətnlərin köməyilə konfliktin həlli modelləri haqqında yeniyetmə təsəvvürlərinin cinsi fərqlər üzrə dəyişməsində əvvəlcədən olan məlumatların təsir imkanları üzə çıxarılıb.




*Şək. 2.3. Davranış modelləri haqqında təsəvvürlərin cinsi fərqlər üzrə dəyişməsi*

Şək. 2.3.–dən görünür ki, eksperimental mətndə olan konflikt situasiyadakı davranış modellərinə münasibətlər müxtəlifdir. Belə ki, iştirakçıların böyük hissəsi adekvat cavablar yazmış olsalar da sınanılanların əksəriyyəti hələ də konflikt situasiyaları düzgün qiymətləndirə bilmir, konflikt situasiyalar zamanı davranış modelləri haqqında adekvat təsəvvürlərə malik deyillər. Nəticələrdən görünür ki, həm eksperimental qrup, həm də kontrol qrup arasında elə də böyük fərq yoxdur. Ancaq davranış modelləri haqqında məlumat

verilən eksperimental qrupun cavabları daha adekvatdır. Əvvəlki eksperimentlərdə olduğu kimi, burada da qızların cavabları daha müvafiq olmuşdur.

Bu hissədə alınan nəticələrdən də aydın görsənir ki, eksperimental mətndə olan konflikt situasiyadakı davranış modellərinə münasibətlər müxtəlifdir. Belə ki, iştirakçıların böyük hissəsi adekvat cavablar yazmış olsalar da, sınanılanların əksəriyyəti hələ də konflikt situasiyaları düzgün qiymətləndirə bilmir, konflikt situasiyalar zamanı davranış modelləri haqqında adekvat təsəvvürlərə malik deyillər. Nəticələrdən görünür ki, həm eksperimental qrup, həm də kontrol qrup arasında elə də böyük fərq yoxdur. Ancaq davranış modelləri haqqında məlumat verilən eksperimental qrupun cavabları daha adekvatdır. Əvvəlki eksperimentlərdə olduğu kimi, burada da qızların cavabları daha müvafiq olmuşdur. Alınan cavabların təhlili göstərir ki, davranış modelləri haqqında verilən bəzi zəruri məlumatlar eksperimentin nəticələrinə nəzərə çarpacaq dərəcədə təsir etmişdir. Bu isə bir daha göstərir ki, yeniyetmələrə konflikt haqqında faydalı məlumatlar vaxtında verilsə konflikt situasiyalar sonda destruktiv deyil, daha konstruktiv sonluqla tamamlanar. Belə olduqda isə onlarda konflikt haqqında daha pozitiv təsəvvürlər inkişaf edər. Bu isə konflikt situasiyalar zamanı yeniyetmlərin təsəvvürlərində üstünlük təşkil edən mübarizə davranış modelinin heç də yeganə yol olmadığını formalaşdırar və bunu öz davranışlarında adekvat əks etdirmiş olarlar.




*Şək. 2. 4. Yeniyetmələrdə konflikt haqqında təsəvvürləri formalaşdıran əsas faktorlar*

Aparılmış tədqiqatların və psixoloji eksperimentlərin nəticələrinə əsaslanaraq yeniyetmələrdə konflikt haqqında təsəvvürlərin formalaşmasına təsir edən əsas amilləri doqquz istiqamətdə qruplaşdırmaq olar (şəkil 2.4).

Tədqiqat göstərdi ki, yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin öyrənilməsi bu yaş qruplarında konfliktlərin idarə olunması baxımından çox əhəmiyyətlidir. Bu baxımdan yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı tədqiqatın yekunlarının araşdırılması aşağıdakı **nəticəyə** gəlməyə imkan verir:

- Araşdırmalar göstərir ki, ailədaxili münasibətlərin səviyyəsindən, tipindən, sosial-iqtisadi vəziyyətindən, konfliktli və ya demokratik olmasından asılı olaraq, yeniyetmələrdə konflikt haqqında təsəvvürlər konstruktiv və destruktiv yönümdə inkişaf edir. Bu prosesdə milli mentalitetin, etnik stereotipin və yönəlişlərin rolu danılmazdır.

- Yeniyetmələrdə konflikt haqqında subyektiv təsəvvürlərin formalaşması və təzahür səviyyələri fərqli cəhətlərə malikdir, bu fərqlər isə özünü münasibətlərdə göstərir.

- Yeniyetmələrin yaşı artdıqca onların konflikt haqqındakı təsəvvürləri koqnitiv baxımdan keyfiyyətcə dəyişir və konfliktlə konflikt situasiya anlayışlarını daha adekvat qiymətləndirə bilirlər.

- Tədqiqatlar üzə çıxartdı ki, kiçik yaşlı yeniyetmələrdə pozitiv aqressivlik üstün olduğu halda, onların yaşı artdıqca neqativ aqressivlik daha üstün olur. Neqativ aqressivlik isə konflikt haqqında destruktiv təsəvvürlər formalaşdırır.

- Oğlan yeniyetmələrə nisbətən qız yeniyetmələr konflikt zamanı və konfliktdən sonra qisas üsulu kimi dolayı yollardan daha çox istifadə edirlər. Həmçinin eyni yaş dövründən olan yeniyetmə oğlan və qızların konflikt haqqında təsəvvürlərinin məzmununda adekvat yanaşma oğlanlara nisbətən qızlarda daha yüksəkdir.

- Keçirilən eksperimentlərdən görünür ki, yeniyetmələrə konfliktin optimal həlli yollarının öyrədilməsi yaranmış anlaşılmaz münasibətlərin konstruktiv sonluqla tamamlanmasına müsbət təsir edir.

- Araşdırmalar göstərir ki, şəxsiyyətlərarası konfliktlərin mahiyyəti, strukturu və emosional müşayiəti haqqında yeniyetmə oğlan və qızların təsəvvürlərinin dəyişməsində fərqlər var.

- Apardığımız tədqiqat göstərir ki, konflikt hadisəsinə münasibətdə yeniyetmə qızları daha çox ətrafdakılarla və valideynləri ilə münasibətlər, oğlanları isə bu münasibətlərin sosial və psixoloji tərəfləri narahat edir;

Tədqiqatda "yeniyetmələrin konflikt haqqında subyektiv təsəvvürlərinin pozitiv yönümdə inkişafını təmin etmək məqsədilə aşağıdakı təklifləri irəli sürmək olar:

- Yeniyetmələrin konflikt haqqında təsəvvürlərində dağıdıcı elementləri azaltmaq üçün profilaktik məqsədlə «ailə - yeniyetmə - məktəb» əməkdaşlığını yaratmaq;

- Yeniyetmələrdə yaşlılıq hissinin inkişafını nəzərə alaraq konflikt zamanı müsbət davranış modelləri haqqında psixoloqlar tərəfindən məktəbin pedaqoji heyəti və valideynlərlə dövrü olaraq maarifləndirici xarakterli seminarların təşkili sistemini qurmaq;

- Konflikt zamanı davranış modelləri haqqında yeniyetmələrə konstruktiv təsəvvürlərin öyrədilməsi üçün məktəb psixoloqları tərəfindən yeniyetmə siniflərində münasibətlər və konfliktlər haqqında dərslərin təşkil olunması.

Dissertasiyanın əsas məzmunu **müəllifin** aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:


1. Şəxsiyyətlərarası konfliktlərin yaş xüsusiyyətləri // Psixologiya jurnalı, Bakı, 2009, № 3, s. 82-90
2. Konflikt prosesində yeniyetmə təsəvvürlərinin cinsi xüsusiyyətləri // Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri jurnalı, Bakı, 2010, № 3, s. 323-327
3. Yeniyetmə aqressivliyi və konflikt haqqında təsəvvürlər // Psixologiya jurnalı, Bakı, 2010, № 4, s. 64-72
4. Yeniyetmə konfliktlərinin psixoloji xüsusiyyətləri // Bakı Qızlar Universitetinin Elmi əsərləri, Bakı, 2010, № 3(9), s. 61 - 68
5. Müasir şəraitdə yeniyetmə konfliktlərinin səbəbləri // Psixologiya jurnalı, Bakı, 2012, № 2, s. 124-131
6. Yeniyetmələrdə konflikt haqqında təsəvvürlərin etnopsixoloji xüsusiyyətləri / Doktorantların və Gənc tədqiqatçıların XVI Respublika Elmi Konfransı. Bakı: 2012, s. 301-304
7. Yeniyetmə konfliktlərinin yaş amilləri // Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi xəbərləri jurnalı, Bakı, 2013, № 1. s.134-139

8. Этнические представления подростками понятия конфликт // Московской Психолого - Социальный Университет. Новое в психолого-педагогических исследованиях, Москва, 2013, №1(34), с. 68-72

9. Образование, отношения и конфликты / III Международная Научная Конференция, посвященная 75-летнему юбилею Бакинского института повышения квалификации и переподготовки педагогических кадров. Баку: 2014, с.175-176

**Рамиль Назим оглу Мирзоев**

# ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СУБЪЕКТИВНЫХ ПРЕДСТАВЛЕНИЙ ПОДРОСТКОВ О КОНФЛИКТЕ

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению одной из важных проблем психологии – это психологические особенности субъективных представлений подростков о конфликте. На сегодняшний день изучение психологических особенностей конфликтного поведения у подростков является весьма актуальным с точки зрения развития личности и эффективной организации учебной деятельности в школе. Исследование общепсихологических закономерностей формирования характера у подростков способствует изучению механизмов их адекватного отношения друг-другу и устранению нарушений, которые могут появляться в их поведении.

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во **введении** обосновывается актуальность темы, указываются объект, степень разработанности темы, предмет, цель и задачи, даются сведения о методах исследования, гипотезе, методологической основе, научной новизне, теоретической и практической значимости, апробации работы.

Первая глава диссертации под названием **«Конфликт как проблема в современной психологии»** состоит из трех параграфов. В данной главе были системно проанализированы проведенные исторические исследования как отечественных, так и зарубежных психологов о сущности конфликта, их мнении, взгляда на конфликт и конфликтные ситуации. Были изложены классификации конфликтов, их функции, структура и пути решения, а также подробно были исследованы психологические особенности подростка. Отмечены причины возникновения конфликтов, показаны пути их решения присуще подростковому возрасту, и раскрыты факторы, влияющие на агрессивную реакцию в подростковом возрасте. А также раскрыта роль агрессии в зарождении деструктивных конфликтов. Наряду свыше изложенным подробно раскрыты механизмы влияния семейного типа, педагогического коллектива и СМИ на формирование представлений о конфликте подростками.

Вторая глава диссертации под названием **«Структура представлений подростков о конфликте и особенностей их изменений»** состоит из трех параграфов. В этой главе исследованы различные особенности представлений подростками младшего и старшего возраста о содержании и структуре конфликта, изучены некоторые аспекты подростковой агрессии и выявлены возможности влияния на процесс формирования деструктивного представления о конфликте. В следующем разделе данной главы были изучены экспериментальным способом изменения особенностей половых различий в представлениях подростков об отношении к конфликтным ситуациям.

В **заключительной** части исследования обобщаются данные по каждой главе, подчёркивается, что формируются в представлениях подростков о конфликте- психологические особенности, влияния типов семьи, СМИ, этнические стереотипы, существующие в обществе и специфичность подросткового возраста.

**Mirzayev Ramil Nazim**

# PSYCHOLOGICAL CHARACTERISTICS OF ADOLESCENTS SUBJECTIVE CONCEPTIONS ABOUT THE CONFLICT

## SUMMARY

The thesis is devoted to the study of one of the most important problems of psychology – it is the psychological characteristics of adolescents' subjective conceptions of the conflict. As of today, the study of the psychological characteristics of conflict behavior in adolescents is highly relevant in terms of personal development and effective organization of learning activities in school. The study of general psychological laws of character formation in adolescents promotes the study of the mechanisms of their adequate attitude to each other and eliminates violations that may occur in their behavior. The dissertation consists of an introduction, two chapters, conclusion and bibliography.

In the introduction the relevance of the topic is substantiated; the object, degree of readiness of the theme, subject, purpose and objectives are indicated; the information about the research methods, hypothesis, methodological basis, scientific novelty, theoretical and practical significance, testing of work is given.

The first chapter of the thesis entitled "Conflict as a problem in modern psychology" consists of three sections.

This chapter has analyzed systematically conducted historical researches of both domestic and foreign psychologists about the nature of the conflict, their opinions, views on conflict and conflict situations. Classifications of conflicts, their functions, structure and solutions were presented, as well as psychological characteristics of an adolescent were particularly investigated. The causes of conflict, the ways of their solution inherent in adolescence are marked, and factors influencing the aggressive reaction in adolescence are disclosed. Also the role of aggression in the generation of destructive conflicts is revealed. Along the above mentioned the mechanisms of influence of family type, teaching staff and mass media in shaping conceptions of the conflict by adolescents have been particularly disclosed.

The second chapter entitled "Structure of adolescents' conceptions about the conflict and the peculiarities of their changes" consists of three sections.

In this chapter we explore various features of adolescents' conceptions

of younger and older age about the content and structure of the conflict, study some aspects of adolescent aggression and identify opportunities of influencing the formation of destructive ideas about conflict. In the next section of this chapter changes of the features of sex differences in adolescents’ conceptions about the attitude to the conflict situations have been studied by means of experiments.

The final part of the study summarizes data for each chapter, emphasizes what is formed in adolescents’ conceptions of conflict - psychological characteristics, the influence of family types, mass media, ethnic stereotypes that exist in society and specificity of adolescence.